Ədəbiyyat qəzeti

23 oktyabr 2021-ci il 27

# Zakir Ağdamlı-75



Hörmətli Zakir müəllim!

Siz 19 oktyabr 1946-cı ildə Ağdam rayonunun Papravənd kəndində anadan olmusunuz. Orta məktəbi öz kəndinizdə və qonşu Boyəhmədli kəndində oxumusunuz. 1966-cı ildə ATİ-nin müalicə profilaktika fakültəsinə daxil olmuş, 1972-ci ildə oranı yüksək qiymətlərlə bitirmişsiniz. 1975-1994-cü illərdə Ağdam RMX-nın 80 çarpayılıq Terapiya şöbəsinin müdiri işləmişsiniz. Səhiyyə əlaçısısınız.

Ədəbi yaradıcılığa ötən əsrin 60-cı illərindən başlamısınız. 1996-cı ildə Xalq şairi Məmməd Arazın sizə yazdığı 5 cümləlik "yaxşı yol"-da deyilir: "Z.Ağdamlının poetik avazı xoşuma gəlir!".

1999-cu ildə "Qəlbimin aynası", 2011-ci ildə "İlahi, dağlara qovuşdur məni" şeirlər kitabınız çap olunub. 5-6 kitablıq materiallar isə öz çapını gözləyir. Vaxtaşırı onlarla ölkə mətbuatında, radio və televiziyalarda çıxış edirsiniz. Siz 40-dək müxtəlif mükafatlarla təltif olunmusunuz. O cümlədən, Beynəlxalq Sülh Səfiri, RVŞ-nin 30 illik qızıl medalı, ÜDTX Konqresinin qızıl medalı, "Turan Birliyi" medalı, Qafqaz Medianın "İlhamla Azərbaycan" medalları laureatısınız. Fəxri elmlər doktoru, ictimai xadimsiniz.

Hörmətli Zakir müəllim!

Sizi 75 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**